# Sahibkarlığın inkişafına dövlət qayğısı öz bəhrəsini verir

## *Ölkə Prezidenti cənab İlham Əliyev vurğulayıb ki, sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır*

**Bu gün inamla deyə bilərik ki, Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması, qlobal böhrana baxmayaraq son illər sosial-iqtisadi sahədə böyük uğurlara imza atması, bölgədə və regionda lider dövlətə çevrilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Artıq 12 ildir ki, bütün sahələrdə başlanılmış strategiyanı böyük öndərin layiqli davamçısı cənab İlham Əliyev uğurla davam etdirir.**

Sosial-iqtisadi göstəricilər müstəqil respublikamızın tərəqqisi barədə aydın təsəvvür yaradır. Ötən illərdə olduğu kimi, cari ilin 6 ayına diqqət yetirsək, bu inkişafın hansı səviyyədə olduğunu görərik. Beləliklə, 6 ayda iqtisadiyyat 5,7 faiz, qeyri-neft sektoru isə 9,2 faiz artmışdır. Sənaye istehsalında artım 4 faiz, qeyri-neft sənayesində isə artım 14 faizdən çox olmuşdur. Bu da son illərdə həyata keçirilən sənayeləşmənin və yeni sənaye zonalarının yaradılması ilə bağlı görülən tədbirlərin nəticəsidir. Kənd təsərrüfatında artım 7,3 faiz olmuşdur ki, bu da son illərin ən yüksək artım tempidir. Altı ayda ölkəmizə 12,7 milyard manat investisiya qoyulmuşdur. Bu da çox böyük rəqəmdir və xarici investisiyalar üstünlük təşkil edir. Bu fakt onu deməyə əsas verir ki, Azərbaycan investorlar üçün çox cəlbedici ölkədir və xarici sənayelər burada lazımi səviyyədə qorunur. Hazırda dünya miqyasında adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Valyuta ehtiyatlarımız 54 milyard dollardan artıqdır. Üçüncü regional inkişafa dair Dövlət Proqramı uğurla icra olunur, bölgələrin siması müsbət mənada çox dəyişib.

Əlbəttə, bu nailiyyətlərin qazanılmasında özəl sektorun, sahibkarlığın da özünəməxsus payı var. Təsadüfi deyil ki, ölkə üzrə ümumi daxili məhsulda özəl bölmənin payı 80 faizdən yuxarıdır. Azərbaycanda müasir milli sahibkarlığın inkişafı bilavasitə 1993-cü ilin ortalarından başlamışdır. Həmin dövrdə ümummilli lider Heydər Əliyev demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalaraq Azərbaycanın yeni dövr üçün prioritetlərini müəyyənləşdirmiş və ölkənin iqtisadi siyasətinin təməlini qoymuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, müstəqil respublikamız istər yerli, istərsə xarici sahibkarlar üçün əlverişli ölkədir. Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının fonunda sahibkarlar səmərəli fəaliyyət göstərmək imkanı əldə ediblər. Elə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində möhtərəm Prezident bu barədə demişdir: "Qeyd etməliyəm ki, qeyri-neft sektorunun inkişafı çox sevindiricidir, bu il 9,2 faiz artıb. Əlbəttə ki, daha çox sahibkarlığın inkişafı, sahibkarların fəaliyyəti hesabına. Çünki dövlət sektorunda artımı daha çox enerji sektoru təmin edir. Ona görə sahibkarlığın inkişafı Azərbaycanda daim diqqət mərkəzində olmalıdır. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır. Digər məsələlər öz həllini tapır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər verilir. İndi təkliflər var ki, faiz dərəcələrini bir az da aşağı salaq. Mən bunu dəstəkləyirəm ki, fermerlər, iş adamları daha da rahat işləsinlər, daha da böyük gəlir əldə etsinlər. Yəni, dövlət çalışır ki, bu məsələ daim diqqət mərkəzində qalsın. Məhz bunun nəticəsində bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb".

Bir sözlə, ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Məsələn, son 22 il ərzində ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, Azərbaycanda bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir. Eyni zamanda respublikada tətbiq olunan vergi yükü azaldılmışdır.

Dövlət başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli fərmanı sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının, bu sahəyə verilən böyük önəmin, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin ardıcıllığının göstəricisi, sahibkarlığın inkişafının yeni mərhələsinin hüquqi əsaslarını özündə əks etdirən mühüm konseptual sənəddir. Fərman Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, onun ən qabaqcıl təcrübələr əsasında təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi üçün əsas olmaqla, qarşıdakı illərdə sahibkarlığın inkişafına geniş imkanlar açır. Həyata keçirilən tədbirlər, dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunan hədəflər bir daha göstərir ki, bütün sahələri əhatə edən irimiqyaslı tədbirlərin həyata keçirilməsi bundan sonra da ölkəmizin davamlı inkişafını, onun dünyada mövqeyinin daha da möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq yaxşılaşmasını təmin edəcəkdir.

Həmçinin regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin bərpası və daha da genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması və sahibkarlıq fəaliyyətinin artırılması kimi vacib istiqamətlərdə də əməli işlər görülür.

Yeri gəlmişkən, bu gün qeyri-neft sektorunda yaradılan əlverişli investisiya mühiti və aparılan iqtisadi islahatlar ölkəmizdə sənayenin kompleks inkişafını təmin edib. Xüsusən ölkəmizin yeni neft strategiyasının uğurları və neft sənayesinin inkişafı digər istiqamətlərdə də sənaye sahələrinin tərəqqisinə yol açıb. Əvvəllər xarici ölkələrdən idxal olunan bir çox sənaye məhsullarının müəyyən qisminin artıq Azərbaycanda istehsal olunması daxili bazarın zənginləşməsinə, idxaldan asılılığın aradan qalxmasına imkan yaradıb. Həmçinin respublikamızın zəngin təbii ehtiyatlara malik olması qeyri-neft sektorunda sənaye potensialından maksimum faydalanmağa zəmin yaradıb.

2012-ci ildən etibarən texnoparkların yaradılması, 2014-cü ilin ölkəmizdə "Sənaye ili" elan edilməsi, eyni zamanda "Sənaye məhəllələrinin yaradılması haqqında" dövlət başçısı tərəfindən fərmanın imzalanması qeyri-neft sektorunun inkişafına yeni təkan vermişdir. Xüsusən də sənaye məhəllələri özəl sektorun, sahibkarlığın hesabına daha geniş vüsət almaqdadır. Statistikaya nəzər salaq: "Sənaye ili" çərçivəsində təsdiq edilmiş tədbirlər planının icrası qeyri-neft sektorunun inkişafına yeni impuls vermişdir. Belə ki, təkcə 2014-cü ildə 230-dan çox sənaye müəssisəsi açılmış, mövcud sənaye müəssisələrinin istehsal gücləri genişləndirilmişdir. Ümumiyyətlə, ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılmasına xidmət edən qeyri-neft sektorunun inkişafı indi bir çox sahələrin tərəqqisi ilə müşayiət olunur.

Dövlət başçısının istər Bakıətrafı qəsəbələrə, istərsə də bölgələrə mütəmadi səfərlər etməsi, infrastruktur obyektlərinin və yeni müəssisələrin açılış və təməlqoyma mərasimlərində iştirak etməsi, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, tapşırıq və tövsiyələrini verməsi, müxtəlif məsələlərlə bağlı bir çox sərəncamlar imzalaması möhtərəm Prezident cənab İlham Əliyevin özəl bölməyə, sahibkarlığa diqqət və qayğısının bariz nümunəsidir.

Hazırda bu istiqamətdə qarşıda duran vəzifələr nədən ibarətdir: ölkədə aparılan sosial-iqtisadi siyasətin strateji məqsədləri bazar münasibətlərinə özünü inkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təcrübəsinə inteqrasiyanı təmin edilməsidir.

Qeyd edək ki, möhtərəm Prezident Nazirlər Kabinetinin sözügedən iclasındakı nitqində bir daha bəyan etmişdir: "Biz maksimum şərait yaratmalıyıq ki, sahibkarlıq inkişaf etsin və sahibkarlar daha da çox vəsait əldə etsinlər, onu yenidən ölkə iqtisadiyyatına qoysunlar".

Bəli, ölkə Prezidentinin bəyan etdiyi kimi, Azərbaycanda biznes mühitinin daha yüksək səviyyədə formalaşmasına, sahibkarlığın inkişafına, iş adamlarının fəallığının artırılmasına bütün icra strukturları, əlaqədar qurumlar yaxından köməklik göstərməlidir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**